# Azərbaycanın yeni tarixi mərhələsi: sabitlik, tərəqqi və beynəlxalq nüfuz

**Bu gün Azərbaycanın sabitlik adasına, təhlükəsizlik məkanına çevrilməsinin başlıca səbəbi ölkədə aparılan uğurlu sosial-iqtisadi siyasətdir. Dünyada və regionda müşahidə olunan siyasi gərginliklər, münaqişələr, iqtisadi tənəzzül fonunda Azərbaycanda tərəqqiyə xidmət edən sabitliyin mövcudluğu hakimiyyət-xalq birliyinin təzahürüdür.**

Azərbaycan Prezidenti cənab İlham Əliyevin liderliyi ilə müstəqil dövlətimizin əldə etdiyi tarixi uğurlar ölkəmizin beynəlxalq nüfuzunun artmasına səbəb olub. Məhz aparılan uğurlu siyasətin nəticəsdir ki, bir il öncə - 7 fevral 2024-cü ildə keçirilmiş prezident seçkilərində xalqımız bir daha cənab İlham Əliyevə etimadını ifadə etdi. Ərazi bütövlüyünü bərpa etmiş, suverenliyini tam təmin etmiş bir ölkə olaraq müstəqil dövlətin ilk prezidenti seçildi. 7 fevral 2024-cü ildə keçirilən növbədənkənar prezident seçkilərində İlham Əliyev 92,12 faiz səs toplayaraq ümumilikdə beşinci dəfə



Azərbaycan Respublikasının Prezidenti seçildi. 44 günlük Vətən müharibəsində tarixi qələbə qazanmış, 2023-cü ilin sentyabrında 24 saatdan da az müddətdə separatizmin kökünü kəsərək ölkə suverenliyini tam təmin etmiş ordunun Ali Baş Komandanına hamılıqla səs vermək həm də vəfa borcu idi. Ümummilli Lider Heydər Əliyevin ideyalarına sədaqətini, cənab İlham Əliyevə minnətdarlığını ifadə edən Azərbaycan xalqı bir daha dünyaya öz müdrikliyini, uzaqgörənliliyini sübut etdi. İlk dəfə olaraq müstəqil Azərbaycanın öz suverenliyini tam bərpa etməsi şəraitində bütün ölkə ərazisində seçkilərin keçirilməsi tarixi hadisə oldu. Təsadüfi deyil ki, bu seçkilər siyasi tariximizə Zəfər seçkisi kimi düşdü. Səsvermə günü cənab İlham Əliyev ailəsi ilə birlikdə Xankəndi şəhərində səs verməsi suverenliyimizə olan diqqətinin bariz nümunəsi idi. Dövlət başçısının dediyi kimi, Xankəndidə qutuya atdığı bülleten separatçıların tabutuna vurulan son mismar oldu. Xankəndidə açılan Qarabağ Universiteti isə ən gözəl Prezident möhürü oldu.

14 fevral 2024-cü ildən ölkəmiz üçün yeni tarixi bir mərhələ başladı. Cənab İlham Əliyev yeni prezidentlik dövründə Milli Məclisdə and içərək ölkənin inkişafı üçün bir sıra strateji hədəflər müəyyənləşdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birillik fəaliyyəti ölkənin tarixində həm gərgin, həm də yeni hadisələrlə yadda qaldı. Bu dövr ərzində həyata keçirilən islahatlar, beynəlxalq tədbirlər və strateji təşəbbüslər Azərbaycanın inkişafına və beynəlxalq nüfuzunun artmasına əhəmiyyətli töhfə verdi. Ərazi bütövlüyünü bərpa etmiş, suverenliyini tam təmin etmiş bir ölkə olaraq, müstəqil dövlətçilik ənənələrini daha da möhkəmlətdik.

Prezident İlham Əliyev son 22 ildə verdiyi bütün vədləri yüksək səviyyədə yerinə yetirdi. Cənab Prezidentin son birillik fəaliyyəti də uğurlarla zəngindir. 2024-cü ildə baş vermiş ən vacib hadisələrdən biri Qazax rayonunun 1990-cı illərin əvvəllərində işğal altına düşmüş dörd kəndinin azadlığa qovuşması oldu. Bu, ordumuzun 2020-ci ilin sentyabrından bəri apardığı uğurlu əməliyyatların, düşmənə endirdiyi sarsıdıcı zərbələrin nəticəsində mümkünləşdi. Bu gün Ermənistan rəhbərliyinin Cənubi Qafqazdakı yeni reallıqları nəzərə alması, Azərbaycanın şərtlərini qəbul etməsi, cənab Prezidentin hər bir açıqlamasını müzakirəyə çıxarması gücümüzün göstəricisidir.

Azərbaycan tərəqqiyə doğru inamla addımlayır. Ölkəmizin bütün istiqamətlərdə statistik göstəriciləri dayanıqlı, dinamik inkişafdan xəbər verir. Ölkəmiz müstəqillik dövründə 2025-ci il üçün ən böyük büdcəsini təsdiqlədi. Eyni zamanda Azərbaycan Ordusunun hərbi potensialını daha da gücləndirmək üçün hərbi büdcə 2025-ci il üçün 8,4 milyard manata qaldırıldı. Hərb sahəsində sayıqlıq və güclü olmaq milli təhlükəsizliyə xidmət edir.

Ölkədə eyni zamanda Qarabağın, Şərqi Zəngəzurun bərpa edilməsinə, vətəndaşlarımızın sosial problemlərinin həllinə ciddi diqqət yetirilir, böyük proqramlar, layihələr həyata keçirilir. 2025-ci ilin dövlət büdcəsindən Qarabağa və Şərqi Zəngəzura 4 milyard manat ayrılıb. 2021-ci ildən bu günə qədər Qarabağın və Şərqi Zəngəzurun bərpasına 19 milyard manatdan çox vəsait ayrılıb. Ötən müddət ərzində 10 minə yaxın keçmiş məcburi köçkün yurd-yuvalarına qayıdıblar. Bu gün azad edilmiş ərazilərdə 30 mindən çox insan yaşayır və çalışır. Prezident İlham Əliyevin rəhbərliyi ilə 2024-cü ildə Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı bərpa və yenidənqurma işləri davam etdirildi. Bu ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiq edilərək müasir infrastruktur layihələri həyata keçirildi. Eyni zamanda keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı davam etdirilir.

Ümumi daxili məhsulun 4 dəfə artması, yoxsulluq səviyyəsinin 5,5 faizə enməsi aparılan düzgün sosial-iqtisadi siyasətin nəticəsində mümkün olub. 2024-cü ildə ümumi daxili məhsul 4 faizdən çox, qeyri-neft sektorunda ümumi daxili məhsul 6 faizdən çox, qeyri-neft sənaye sahəsində isə artım 7 faizdən çox olub. Hazırda 72 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Azərbaycanın xarici borcu cəmi 5,2 milyard dollardır ki, bu da valyuta ehtiyatlarımızdan 14 dəfə azdır. 2025-ci ildən başlayaraq minimum əməkhaqqı 345 manatdan 400 manata, minimum pensiya isə 280 manatdan 320 manata qaldırılıb. Prezident İlham Əliyevin daxili siyasətində əhalinin sosial rifahının artırılması prioritet istiqamətlərdəndi. 2024-cü ildə sosial müdafiə sahəsində bir sıra islahatlar həyata keçirildi, şəhid ailələri və qazilərə xüsusi diqqət göstərildi. Eyni zamanda təhsil, səhiyyə və mədəniyyət sahələrində yeni layihələr icra edildi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm addımlar atıldı.

Ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə qarşı mübarizə məqsədilə Prezident İlham Əliyev 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etdi. Bu təşəbbüs çərçivəsində ölkədə bir sıra ekoloji layihələr həyata keçirildi. Ən mühüm tədbirlərdən biri isə Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının 29-cu Tərəflər Konfransı (COP29) oldu. Bu mötəbər tədbir Azərbaycanın qlobal iqlim məsələlərində fəal rol oynadığını bir daha nümayiş etdirdi.

Azərbaycanın enerji siyasətində bərpaolunan enerji mənbələrinin inkişafı xüsusi yer tutdu. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2024-cü ildə "yaşıl enerji" layihələri sürətləndirildi, xüsusilə Qarabağ və Şərqi Zəngəzur bölgələri "yaşıl enerji" zonası olaraq inkişaf etdirildi. Bu ərazilərdə günəş və külək enerjisi stansiyalarının tikintisi həyata keçirildi, ölkənin enerji təhlükəsizliyinin təmin edilməsi və ixrac potensialının artırılması istiqamətində mühüm addımlar atıldı.

Bu gün dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bir çox ölkələrlə, o cümlədən qonşularla müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir.

Beynəlxalq institutların funksionallığının itdiyi, güclü və zəif dövlətlərin yerlərinin dəyişdiyi zamanda iqtisadi dövlətçiliyin önə çıxdığını, ölkələrin inkişafında lider amilini aydın görürük. Belə bir məqamda Azərbycanın regionda və dünyada artan mövqeyi Siyasi Lider-Şəxsiyyət amilinə, Prezident intuisiyasına bağlıdır. Azərbaycan məhz güclü Siyasi Lideri ilə yeni imic qazandı. Regionda yeni arxitekturanın qurulmasında, yeni nəqliyyat-loqistikanın formalaşmasında ölkəmiz həlledici rol oynadı. Dünyanı bürüyən qlobal siyasi təlatümlər dövründə Azərbaycan müstəqil siyasəti ilə informasiya savaşlarını uğurla dəf edərək ölkələr üçün etibarlı tərəfdaş nüfuzunu qazandı.

Eləcə də Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv olması, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi, habelə dünya ölkələri tərəfindən ən böyük beynəlxalq konfransın (COP29) Bakıda keçirilməsi haqqında yekdil qərar qəbul edilməsi ölkəmizin dünya miqyasındakı artan nüfuzunun göstəricisidir. Yeni mərhələdə neokolonizmə qarşı etiraz ölkəmizə yeni tərəfdaşlar qazandırdı.

2024-cü ildə Prezident İlham Əliyev bir sıra xarici səfərlər və yüksəksəviyyəli görüşlər keçirərək Azərbaycanın beynəlxalq mövqeyini daha da gücləndirdi. Xüsusilə, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən görüşlərdə Ermənistanla münasibət-



lərin normallaşdırılması və sülh prosesinin irəlilədilməsi istiqamətində mühüm addımlar atıldı. Bununla yanaşı Türkiyə, Çin, İtaliya, Rusiya, Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Pakistan və digər ölkələrin liderləri ilə keçirilən görüşlərdə enerji, nəqliyyat və investisiya sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi. Türk dövlətləri ilə əməkdaşlıq yeni bir müstəviyə yüksəldi.

Dövlət başçısı cənab İlham Əliyevin suverenliyimizin bərpa olunmasını yeni dövrün başlanğıcı kimi qiymətləndirməsi qarşımıza yeni hədəflər, məqsədlər qoyur. 7 fevral seçkilərində cənab İlham Əliyevin seçki kampaniyasının "Yeni hədəflərə doğru!" şüarı ilə həyata keçirilməsi də buna hesablanmışdı. Yeni hədəflərə çatmaq üçün 7 fevral prezident seçkiləri müstəsna əhəmiyyət kəsb edir. Qarşıdakı əsas hədəflər regionumuzda sülhün təmin olunması, Azərbaycan iqtisadiyyatının daha da artırılması, milli təhlükəsizliyimizin və ordumuzun daha da gücləndirilməsi, yeni milli ideologiyamızın formalaşması, bütün sosial sahədə islahatların davam etdirilməsi, ölkəmizin beynəlxalq miqyasda mövqelərinin daha da gücləndirilməsi, müəyyən qlobal layihələrin reallaşdırılması, Türk dövlətləri ailəsinin möhkəmlənməsi, Böyük Qayıdış və Qərbi Azərbaycana Qayıdış konsepsiyalarından irəli gələn məsələlər və digər istiqamətlər daxildir. Azərbaycan qarşıdakı illərdə cənab Prezidentin rəhbərliyi altında yeni hədəflərinə uğurla çatacaqdır.

Cənab Prezident, Azərbaycan yeni ən mütərəqqi dövrünü Sizinlə qurur, yaradır və yaşayır! Bu müqəddəs yolda hamımız sizinləyik! Azərbaycanın Müasir Lideri olaraq sizinlə fəxr edirik. Siz artıq sərhədləri aşaraq Dünyasəviyyəli Lider adını qazanmısınız. Müxtəlif ölkələrin vətəndaşlarının sizin güclü Lider olmağınız haqda fikirlərini eşidərkən qürur duyuruq. Xalq hər zaman sizinlədir! Azərbaycan Xalqı sərkərdəsinin yanındadır!..

*Mehriban VƏLİYEVA,*
*Milli Məclisin deputatı*

Azərbaycan.-2025.- 7 fevral (№ 27).- S.6.

azerbaija